

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 101 (21.511)

*3 iyun 2016-cı il, cümə*

**Gündəlik ictimai-siyasi qəzet**

www.serqqapisi.az

Qiymәti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Avropa Parlamentində liberal-demokratlardan ibarət fraksiya – ALDE qrupun vitse-sədri, "Şərq Tərəfdaşlığı" Proqramının Azərbaycan üzrə məruzəçisi Norika Nikolaini və Avropa Parlamentinin üzvü İveta Qriquleni qəbul edib.

Dövlətimizin başçısı Avropa Parlamenti ilə əlaqələrdə qurumun ölkəmizlə bağlı qəbul etdiyi qətnamələrin əsas rol oynadığını bildirib. Prezident İlham Əliyev qeyd edib ki, təhqirlərlə dolu və tamamilə əsassız olan həmin qətnamələrin qəbul edilməsi ölkəmizin bu qurumla əlaqələrinin kəsilməsinə səbəb olub. Hazırda Avropa Parlamenti ilə ölkəmizin hər hansı əlaqəsi mövcud deyil və bu, Azərbaycanın günahı ucbatından baş verməyib. Ölkəmiz yalnız öz haqlı mövqeyini müdafiə edib. Dövlətimizin başçısı vurğulayıb ki, qurumun ən yüksək rütbəli şəxsləri – prezidenti və vitse-prezidenti faktiki olaraq anti-Azərbaycan qüvvələrinin bir hissəsini təşkil edir və onlar tərəfindən səsləndirilən təhqiramiz bəyanatlar, hücumlar və böhtanlar Azərbaycanın Avropa Parlamenti ilə əlaqələrinin perspektivlərini sual altına qoyub.

Avropa Parlamentində liberal-demokratlardan ibarət fraksiya – ALDE qrupun vitse-sədri, "Şərq Tərəfdaşlığı" Proqramının Azərbaycan üzrə məruzəçisi Norika Nikolai Azərbaycan ilə yaranmış vəziyyətin dəyişməkdə olduğunu deyib və Avropa Parlamenti ilə Azərbaycan arasında əlaqələrin bərpa olunması istəyini ifadə edib.

## Naxçıvan Muxtar Respublikasında statistika işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Muxtar respublikada statistika işinin daha da təkmilləşdirilməsi, sosial-iqtisadi inkişafı və cəmiyyətin bütün sahələrində baş verən dəyişiklikləri əks etdirən statistik göstəricilərin hazırlanmasını təmin etmək məqsədi ilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində statistika uçotunun aparılması təmin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi:

2.1. statistika uçotu sənədlərinin nümunələrini hazırlayaraq təsdiq etsin;

2.2. işçilərin peşə hazırlığını və təkmilləşdirilməsini nəzarətdə saxlasın;

2.3. Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə Komitənin aparatı ilə rayon (şəhər) idarələri arasında elektron sənəd dövriyyəsinin həyata keçirilməsi üçün tədbirlər görsün;

2.4. yerli icra hakimiyyətləri ilə birlikdə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə statistika orqanı əməkdaşlarının fəaliyyəti üçün müvafiq şəraitin yaradılmasını təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. Maliyyə Nazirliyi ilə birlikdə Dövlət Statistika Komitəsinin aparatının və yerli qurumlarının ştat strukturuna yenidən baxılması və maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı tədbirlər görsün;

3.2. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam 2016-cı il iyulun 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 iyun 2016-cı il*

## Dövlət proqramı uğurla icra olunur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən cari ilin 5 ayı ərzində bir sıra tədbirlər həyata keçirilib.***

Nazirlikdən aldığımız məlumata görə, məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar barədə yaradılmış məlumat bazası yenilənib. Bu kateqoriyadan olan uşaqların əqli və fiziki potensialları nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrinə, ümumtəhsil müəssisələrinə və görmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi ibtidai məktəbə, habelə distant dərslərə cəlb olunması diqqət mərkəzində saxlanılıb, məktəbəqədər təhsil müəssisələrinə bu kateqoriyadan olan 70 uşaq cəlb edilib.

Sağlamlıq imkanları məhdud uşaqların məktəb mühitinə tədricən uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına şərait yaradılıb. Muxtar respublikanın ümumtəhsil müəssisələrində sağlamlıq imkanları məhdud 921 uşaq təhsil alır.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə qabiliyyəti məhdud 9 şəxs üçün distant dərslərin keçilməsi davam etdirilir. Hazırda hərəkət qabiliyyəti məhdud 22 uşaq Distant Tədris Mərkəzində təhsil alır. Distant tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqların muxtar respublikanın muzeyləri ilə keçilən interaktiv dərslərdə iştirakları təmin edilib.

Bu qəbildən olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, həmçinin uşaqlara defektoloji, multisensorlu və əmək terapiyası xidmətinin göstərilməsi davam etdirilib. Qeyd olunan dövr ərzində həmin xidmətlərə, ümumilikdə, bu kateqoriyadan olan 139 uşaq cəlb edilib. Defektoloji bölmənin müəllim defektoloqu iş təcrübəsini artırmaq məqsədilə Bakı şəhərində fəaliyyət göstərən Müasir Psixologiya Mərkəzində kursda olub.

Dövlət proqramına uyğun olaraq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində diqqət zəifliyi və hiperaktiv uşaqların reabilitasiyası üçün təlim-bərpa otağı və fərdi, ailə və uşaq psixoloji məsləhət xidmətinin təşkili məqsədilə psixoloji dəstək xidməti yaradılıb.

Görmə qabiliyyəti məhdud uşaqların xüsusi ibtidai məktəbə cəlb edilməsi məqsədilə onların valideynlərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib, "Könül işığı" adlı brayl jurnalının hər ay nəşri təmin edilib.

Məlumatda o da bildirilir ki, sağlamlıq imkanları məhdud uşaqların bacarıq və maraqları nəzərə alınaraq musiqi məktəblərinə, məktəbdənkənar müəssisələrin dərnəklərinə, habelə idman məktəblərinə cəlb edilməsi, onların istedadlarının aşkara çıxarılması, asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbirlərin keçirilməsinə diqqət artırılıb. Qeyd olunan dövr ərzində sağlamlıq imkanları məhdud və aztəminatlı ailənin, ümumilikdə, 84 məktəbli uşağının valideynlərin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilib, bu kateqoriyadan olan uşaqların iştirakı ilə xalq uşaq oyunlarından ibarət əyləncəli yarış, şeir və asfalt üzərində rəsm müsabiqələri keçirilib, Naxçıvan Dövlət Uşaq Teatrında bu kateqoriyadan olan uşaqların ifasında hazırlanan tamaşa nümayiş etdirilib, Naxçıvan Dövlət Kukla Teatrında onlara tamaşa göstərilib, sağlamlıq imkanları məhdud 5 uşaq boccia idman növü üzrə bölməyə cəlb edilib. Məktəbdənkənar müəssisələrə sağlamlıq imkanları məhdud 356 uşaq cəlb olunub.

Məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri ilə aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət təşkil edilmiş komissiya tərəfindən ötən dövr ərzində Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayonlarında fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı monitorinqlər aparılıb, həmçinin valideyn, şagird və müəllimlərlə maarifləndirici görüşlər keçirilib.

Dövlət proqramının icrası ilə bağlı görülən işlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafının təmin olunmasında həyata keçirilən tikinti-quruculuq tədbirləri mühüm rol oynayır. Bu sahədə görülən işlərin nəticəsidir ki, hər il muxtar respublikanın şəhər, rayon, qəsəbə və kəndlərində yeni obyektlər istifadəyə verilir, əhalinin rifahının yaxşılaşdırılmasına və sosial problemlərinin həllinə xidmət edən infrastruktur sahələri yaradılır. Cari ildə də bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. Hazırda Naxçıvan şəhər inzibati ərazi dairəsində yerləşən Tumbul və Bulqan kəndlərində kompleks quruculuq işləri aparılır.***

## Daha iki kənddə kompleks quruculuq işləri aparılır





Tumbul kəndindəki üçmərtəbəli məktəb binası və ikimərtəbəli kənd mərkəzinin tikintisinə bu ilin aprel ayından başlanılıb. 324 yerlik kənd tam orta məktəbinin binasında birinci mərtəbədə hörgü işləri başa çatdırılıb, ikinci mərtəbədə isə betonqəlib işləri görülür. İşlər tamamlandıqdan sonra məktəb binasının birinci mərtəbəsində kitabxana, fənn laboratoriyaları, idman zalı, şahmat və hərbi hazırlıq sinifləri, ikinci mərtəbədə siniflər, üçüncü mərtəbədə isə üç elektron lövhəli sinif, iki kompüter sinfi, müəllimlər otağı, şahmat sinfi yerləşəcək.

Kənd mərkəzinin binasında isə hörgü işləri yekunlaşdırılıb. Mərkəzin birinci mərtəbəsində kitabxana, rabitə xidməti, baytarlıq, polis və tibb məntəqələri, ikinci mərtəbədə isə bələdiyyə, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, YAP ərazi ilk təşkilatı üçün otaqlar ayrılacaq. Bundan əlavə, kənddə yeni xidmət mərkəzi üçün də binanın tikilməsi planlaşdırılır.

Qeyd edək ki, hər iki obyektin tikintisi Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin inşaatçıları tərəfindən aparılır.

Bulqan kəndində də yeni kənd və xidmət mərkəzlərinin tikintisi davam etdirilir. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən aparılan tikinti işlərinə 2015-ci ilin ortalarından başlanılıb. Ötən müddət ərzində ikimərtəbəli kənd mərkəzində hörgü işləri başa çatdırılıb, binanın dam örtüyü vurulub, pəncərələr salınıb. Hazırda binanın daxilində yerə daş döşənir, fasad hissədə isə suvaq işləri aparılır, pəncərələrin kənarları və binanın küncləri milli memarlıq nümunələrindən istifadə edilməklə travertin daşla üzlənir. Yeni binada kənddə fəaliyyət göstərən dövlət qurumları üçün hərtərəfli şərait yaradılacaq.

Buradakı xidmət mərkəzi üçün tikilən binada da əsas işlər görülüb. Belə ki, dam örtüyü vurulub, binanın fasad hissəsi suvanıb. Hazırda daxildə suvaq işləri aparılır, yaxın günlərdə isə qapı və pəncərələrin salınmasına başlanılacaq. Eyni zamanda hər iki binanın həyətində də abadlıq işləri görüləcək, yerə dekorativ daşlar döşənəcək, yeni gülkarlıqlar salınacaq. Bina istifadəyə verildikdən sonra burada ərzaq və təsərrüfat mallarının satışı üçün iki mağaza, bərbər, gözəllik salonu və ət satışı mağazası fəaliyyət göstərəcək.

**Xəbərlər şöbəsi**

# Heydər Əliyev Su Anbarı

## Naxçıvanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayır




***Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə həyatın hər bir sahəsinin inkişafını təmin edib. Dahi rəhbərin böyük önəm verdiyi tədbirlər sırasında meliorasiya və irriqasiya işləri də mühüm yer tuturdu. Ulu öndər belə tədbirlərin həyata keçirilməsini ona görə vacib sayırdı ki, məhsuldar torpaq sahələrimiz əkilməmiş qalmasın, şoranlaşmanın qarşısı alınsın, əhalinin yerli əkinçilik məhsullarına tələbatı daxili imkanlar hesabına ödənilsin, ərzaq təhlükəsizliyi təmin edilsin. Bu tədbirlər ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını da əhatə edirdi. O dövrə qısa ekskurs etsək, görərik ki, əgər 1970-ci ilə qədər muxtar respublikada kiçik və az əhəmiyyətli bir neçə su anbarı yaradılıbsa, 1970-ci ildən sonra ümumi tutumu 1 milyard 477 milyon kubmetr olan 20 su anbarı tikilib. Bu da yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verib.***

1971-ci ildə Araz çayı üzərində qonşu İran İslam Respublikası ilə birgə tikilmiş dəryaçanın ümumi su tutumu 1254 milyon kubmetr, faydalı su həcmi 1150 milyon kubmetrdir. O dövrdə Araz çayı üzərində üzən nasos stansiyası quraşdırılıb, bu da Naxçıvan şəhərinin, indiki Kəngərli və Babək rayonlarının Araz çayı boyunca yerləşən torpaq sahələrinin suvarılmasına imkan yaradıb.

1971-ci ildə Şahbuz rayonunun Nurs, Babək rayonunun Dizə, 1979-1980-ci illərdə Cəhri, Məzrə, Payız, Çənnəb, Dəstə, Gilan və sair su anbarları tikilib istifadəyə verilib.

1977-ci ildə istifadəyə verilən Arpaçay dəryaçasının ümumi su tutumu 150 milyon kubmetr, faydalı həcmi 140 milyon kubmetrdir. Bu, Şərur rayonunun torpaq sahələrinin su ilə təminatına imkan verib. 1980-ci ildə istifadəyə verilən 12 milyon kubmetr tutumu olan Sirab Su Anbarı Babək rayonu ərazisində 3 min hektara yaxın, 17 milyon kubmetr tutumu olan Bənəniyar Su Anbarı isə Culfa və Babək rayonları ərazisində, təxminən, 4 min hektar əkin sahəsinin suvarılmasına imkan yaradıb.



Bütövlükdə muxtar respublikada 1970-ci ildən sonra istifadəyə verilmiş su anbarları 55 min hektara yaxın torpaq sahəsinin suvarılmasına xidmət edib.

Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə xarakterizə edir: ***"Muxtar respublikada istifadəyə verilən su anbarları və başqa əhəmiyyətli suvarma obyektləri məhsuldar qüvvələrin inkişafında mühüm rol oynamışdır... Həmin dövrdə görülən irimiqyaslı meliorasiya və irriqasiya tədbirləri məhsul bolluğuna təminat yaratmış, muxtar respublikanın kəndləri simasını dəyişmiş, adamların güzəranı yaxşılaşmışdır. Bir sözlə, muxtar respublikada iri sututarların, dəryaçayların inşa olunması, sadəcə, tikinti proqramlarının yerinə yetirilməsi demək deyildi. Bu, eyni zamanda uzun müddətə hesablanmış strateji proqram idi".***

Heydər Əliyev Su Anbarı da görkəmli dövlət xadiminin həyata keçirdiyi böyük iqtisadi layihələrdən biridir. 2005-ci il dekabr ayının 19-da istifadəyə verilən Heydər Əliyev Su Anbarının açılışında ölkə Prezidenti cənab İlham Əliyev iştirak edib.

Məlumat üçün bildirək ki, yüz milyon kubmetr su tutumu olan bu anbarın tikintisinə hələ sovet dönəmində, 1982-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanılmışdı. Su anbarı muxtar respublikada 16 min 830 hektar sahənin suvarılmasına imkan verəcəkdi ki, bunun da 6 min 919 hektarı yeni əkin dövriyyəsinə qatılan torpaqlar olacaqdı.

Lakin ötən əsrin 80-ci illərinin sonlarında inşaat işləri yarımçıq qaldı. Ancaq öz şəxsi ambisiyalarını düşünən ovaxtkı Azərbaycan rəhbərliyi bu layihənin muxtar respublikaya, nəticə etibarilə, ölkəmizə verəcəyi iqtisadi səmərəni düşünmək qabiliyyətindən uzaq idi. Yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu nəhəng obyektin tikintisinin davam etdirilməsi məqsədilə 2002-ci il avqust ayının 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində görkəmli dövlət xadiminin sədrliyi ilə müşavirə keçirildi. Müşavirədə ulu öndər Heydər Əliyev demişdir: ***"Mən bu dəfə Naxçıvana gələndə bəyan etdim ki, Naxçıvanda bir neçə böyük problemlərin həll edilməsi ilə məşğul olacağam. Görürsünüz ki, ayın 10-da buraya gələndən bunu edirəm. Bu problemlərdən biri Naxçıvan Muxtar Respublikası üçün çox böyük əhəmiyyəti olan Vayxır su anbarının tikilib başa çatdırılması və layihəyə uyğun olaraq istismara verilməsidir...***

***Hələ 1981-ci ildə onun layihəsi hazırlanmışdır. Ancaq belə bir su anbarının yaranması haqqında qərarı biz Azərbaycanda bundan bir neçə il öncə qəbul etmişdik. Yəni belə böyük tikintiləri biz özümüz həll edə, onları öz vəsaitimizlə inşa edə bilmirdik. Bunlar Azərbaycanın büdcəsinə daxil ola bilmirdilər. Bunların hamısını biz o vaxtlar ümumittifaq büdcəsindən və ümumittifaq iqtisadiyyatının müxtəlif sahələrindən istifadə edərək həyata keçirirdik. Ona görə Vayxır su anbarının tikilməsinin ideyası çoxdandır və bu işin görülməsi haqqında da hələ xeyli zaman layihə işlərinə başlanmamışdan əvvəl biz lazımi qərarlar qəbul etmişdik. Nəhayət, 1981-ci ildə bu layihələşdirildi, 1982-1983-cü illərdə inşaat işlərinə başlandı. Ancaq indi 2002-ci ildir. 20 il keçib, bu, yarımçıq qalıbdır. Təbiidir ki, indi zamanı gəlib, yaqin bizim imkanlarımız buna şərait yaradır ki, bu böyük layihəni tamamilə həyata keçirək".***

Bu iş üçün külli miqdarda vəsait ayrıldı, tikintiyə səriştəli mütəxəssislər və texnika cəlb olundu. Böyük səylər hesabına vaxtında başa çatan bu anbarın tikintisində başlıca məqsəd ondan ibarət idi ki, muxtar respublikanın məhsuldar torpaq sahələrindən səmərəli istifadə edilsin, bol məhsul yetişdirilsin. Baha qiymətə başa gələn, mənbəyi bəlli olmayan, regionumuza başqa yerlərdən gətirilən qida məhsullarının qarşısı alınsın. Bu gün dahi rəhbərin arzuları reallığa çevrilib. Yüksək texniki göstəricilərə malik olan anbarda suvarma suyunun minimum itki ilə rayonlara verilməsini təmin etmək məqsədilə su sərfi saniyədə 20 kubmetr olan aparıcı beton kanal və kanalın üzərində subölücü qurğu tikilib. Subölücü qurğudan su uzunluğu 30,5 kilometr, sərfi saniyədə 13 kub olan sol, sərfi saniyədə 7 kub, uzunluğu 24,2 kilometr olan sağ sahil kanallarına verilir. Sağ və sol sahil kanallar üzərində 60 ədəd suburaxıcı qurğular, kanalların üzərində müxtəlif hidrotexniki qurğularla bərabər suvarılan torpaq sahəsini su ilə təmin etmək üçün qapılar qoyulub.

Anbar istifadəyə verildikdən sonra Şahbuz, Culfa, Babək rayonlarının suvarma suyuna olan tələbatı xeyli yaxşılaşdırılıb. Belə ki, Babək rayonunda 4364 hektar, Culfa rayonunda 2311 hektar, Şahbuz rayonunda 244 hektar, ümumilikdə, 6919 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib. Heydər Əliyev Su Anbarı vasitəsilə bu gün, ümumilikdə, 16830 hektar əkin sahəsi suvarılır. Daha dəqiq desək, sağ sahil kanalı ilə Naxçıvan şəhərinin Tumbul, Qaraxanbəyli, Qaraçuq, Bulqan, Babək rayonunun Cəhri, Uzunoba, Şıxmahmud, Nəzərabad, Didivar, Xəlilli kəndləri, sol sahil kanalı ilə isə rayonun Vayxır, Sirab, Qahab, Xal-xal, Məzrə, Qaraqala, Məmmədrzadizə, Kültəpə, Kərimbəyli, Zeynəddin, Nəcəfəlidizə, Yarımca, Hacıvar, Badaşqan, Şəkərabad, Nehrəm, Çeşməbasar, Güznüt kəndlərinin, Babək qəsəbəsinin torpaq sahələri suvarma suyu ilə təmin olunur. Su anbarından çəkilən kanallar hesabına Babək rayonunun 13869 hektar torpaq sahəsi suvarılır. Culfa rayonunun Ərəzin və Bənəniyar kəndlərinin 2311 hektar torpaq sahələrinə sol sahil kanalı vasitəsi ilə suvarma suyu verilir. Aparıcı kanal üzərində tikilmiş "Əcəmi 1" nasosu ilə Şahbuz rayonunun 650 hektar torpaq sahəsi suvarma suyu ilə təmin edilir...

...Dahi rəhbərin müəllifi, qurucusu və yaradıcısı olduğu müstəqil Azərbaycanın hər yerində, o cümlədən Naxçıvan Muxtar Respublikasında görkəmli dövlət xadimi Heydər Əliyevin yaratdıqlarının sayı-hesabı ölçüyəgəlməzdir. Onların hər biri ulu öndərin uzaqgörən siyasətinin bəhrələridir. Bu siyasətin təməlində duran başlıca amil xalqın inkişaf və tərəqqisini təmin etmək olub. Və həyata keçirilən tədbirlər, qazanılan cahanşümul qələbələr də bu amilə xidmət edib. Qədirbilən xalqımız dahi rəhbərin Azərbaycan, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamız üçün etdiklərini unutmur, Onun qurub-yaratdıqlarını ən qiymətli yadigar hesab edirlər.

*Bu gün ümummilli liderimizdən bizə ərməğan qalan belə qiymətli yadigarları Onun əsərləri hesab etmək olar və belə yadigarların bir çoxu görkəmli dövlət xadiminin adını daşıyır. Heydər Əliyev Su Anbarı da ulu öndərin böyük əsərlərindən biridir.*

**Muxtar MƏMMƏDOV**

# Müasir kənd təsərrüfatı texnikaları ilə təminat məhsuldarlığın yüksəldilməsində vacib amildir

***Muxtar respublikanın əlverişli iqlim şəraiti, bərəkətli, münbit torpaqları, kənd təsərrüfatının inkişafına hərtərəfli dövlət qayğısının göstərilməsi mövcud torpaq potensialından səmərəli istifadə edilməsinə, həmçinin əkin dövriyyəsinin genişləndirilməsinə böyük imkanlar açıb. Təsərrüfat suyuna olan tələbatın ödənilməsi, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlərin və müasir kənd təsərrüfatı texnikalarının verilməsi, aqrotexniki xidmət sarıdan köməkliklərin göstərilməsi bu sahəyə olan dövlət qayğısının daha bir nümunəsidir.***



Təbii ki, əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsində, yetişdirilən məhsulun vaxtında və itkisiz toplanılmasında müasir kənd təsərrüfatı texnikalarından səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Bu baxımdan torpaq mülkiyyətçilərinin və fermerlərin kənd təsərrüfatı texnikaları ilə təmin olunması olduqca vacib məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti aqrar bölmənin kənd təsərrüfatı texnikaları ilə təchizatını, müxtəlif servis xidmətlərinin göstərilməsini, torpaq mülkiyyətçilərinə güzəştli qiymətlərlə mineral gübrələrin satışını həyata keçirir, kənd təsərrüfatı texnikalarının lizinq yolu ilə fermerlərə verilməsini təmin edir. Müasir kənd təsərrüfatı texnikalarının və texnoloji avadanlıqların alınıb gətirilməsi istiqamətində də işlər uğurla davam etdirilib. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xəttilə 53 ədədi 2016-cı ildə olmaqla, cəmi 1738 ədəd müxtəlif təyinatlı müasir kənd təsərrüfatı texnikaları və avadanlıqları alınıb gətirilib.

Mövcud texnika və texnoloji avadanlıqların saxlanılmasına və yüksəkkeyfiyyətli aqroservis xidmətinin göstərilməsinə əlverişli şərait yaradılıb, 2010-cu ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və onun Şərur, Culfa, 2011-ci ildə Sədərək, Kəngərli, Ordubad, 2013-cü ildə isə Şahbuz bazalarında inzibati bina, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilib. Hazırda "Naxçıvan Aqrolizinq" ASC-nin bazalarında 294 ədəd müxtəlif texnika və avadanlıq vardır. Bunun 26 ədədi Şərur, 37 ədədi Babək, 25 ədədi Culfa, 10 ədədi Sədərək, 9 ədədi Ordubad, 14 ədədi Şahbuz, 15 ədədi isə Kəngərli bazalarına icarəyə verilib. Onu da qeyd edək ki, cari ilin əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsi və sahələrdə yetişdirilən məhsulun optimal müddətə itkisiz toplanılması üçün kompleks tədbirlər həyata keçirilib, lazımi ehtiyat hissələri alınıb, texnikalara baxış keçirilərək mövsümə hazır vəziyyətə gətirilib.

Ölkə başçısının "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri mineral gübrələrin dövlət tərəfindən ödənilməsi təmin edilib. Məhsuldarlığın artırılmasında mühüm rol oynayan mineral gübrələrin alınaraq muxtar respublikaya gətirilməsi və torpaq mülkiyyətçilərinə çatdırılması da diqqət mərkəzində saxlanılıb. Həmçinin sərəncama əsasən, kənd təsərrüfatı texnikalarının hüquqi və fiziki şəxslərə müddətli ödənişlə satılmasına da güzəştlər tətbiq olunub. Belə ki, 2007-ci ilədək satılan kənd təsərrüfatı texnikaları dəyəri 5 il müddətinə ödənilib, dəyərinin 120 faizi məbləğində girov qoyulmaqla satılırdısa, 2011-ci ilədək 10 il müddətinə və dəyərinin 20 faizi əvvəlcədən ödənilməsi şərtilə heç bir girov qoyulmadan satılıb. 2011-ci ilin yanvar ayından isə kənd təsərrüfatı texnikaları 10 il müddətinə və dəyərinin 10 faizi əvvəlcədən ödənilməsi şərtilə heç bir girov qoyulmadan satılıb. Hazırda texnikaların ilkin dəyəri 20 faiz ödənilməklə dövlət büdcəsinin vəsaiti hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq olunur. Bu da, təbii ki, texnikaların hüquqi və fiziki şəxslər tərəfindən alınmasına əlverişli şərait yaradıb, 2016-cı ildə 7 ədədi nağd və köçürmə, 62 ədədi lizinq yolu ilə olmaqla, ümumilikdə, 1444 ədəd texnika satılıb. Həmçinin məhsuldarlığı artırmaq məqsədilə torpaq mülkiyyətçiləri 4905,2 ton mineral gübrə ilə təmin olunub.

Torpaq mülkiyyətçiləri, fermer və fərdi sahibkarlar daxili bazarı yüksəkkeyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün mövcud imkanlardan səmərəli istifadə edir, göstərilən dövlət qayğısından bəhrələnməklə aqrar bölmənin inkişafına öz töhfələrini verirlər. Bu, sahibkarların maddi rifahının daha da yaxşılaşdırılmasına şərait yaratmaqla bərabər, ölkəmizin, o cümlədən muxtar respublikamızın ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

**Kərəm HƏSƏNOV**

Jurnalist araşdırması

# Reklam inkişafın tələbidir

## Bəs bu vacib işi necə təşkil edirik?

*Rifahımız üçün hazırlanan məhsulların keyfiyyəti, göstərilən xidmətlərin səviyyəsi onun sahibkarının göstəricisidir. Bazarda uğur qazanmaq hər bir iş adamının əsas hədəfi olduğu kimi, güclü sahibkarlıq təbəqəsinə sahib olmaq da hər bir dövlətin əsas məqsədidir. Ona görə də güclü iqtisadiyyata malik olmaq üçün görülən işin reklamı da zamanın tələbi kimi qarşımızda durur. Reklam müasir həyatımızda hər yerdə vardır. Belə ki, əksər hallarda yeni olan məhsul və xidmətlər haqqında məhz reklamlar vasitəsilə xəbər tuturuq. Hər gün həyatımıza daxil olan belə yeniliklərdən vaxtında xəbər tutduğumuzda onların nə qədər faydalı olduğunu da görmüşük. Ona görə də yaddaqalan reklamlara hər kəs maraqlıdır.*



Reklam işi həm də bir biznes sahəsidir. Azad bazar iqtisadiyyatına xas olan rəqabət mühitində reklam və reklam bazarı bizdə də genişlənməkdə, firma və müəssisələr öz uğurları üçün onun gücündən istifadə etməkdədirlər. İndi ölkəmizin və muxtar respublikamızın daxili bazarında dərman preparatlarından tutmuş avtomobillərə qədər idxal olunmuş mal və məhsullarla yanaşı, yerli məhsullarımızın və xidmətlərimizin də reklamlarını görməkdəyik. Ancaq inkişafımızın ümumi səviyyəsinə və strateji hədəflərə baxdıqda yerli kənd təsərrüfatı və sənaye məhsullarımızın, xidmətlərimizin, turizm ehtiyatlarımızın hələ də çox az reklam olunduğu qənaətinə gəlirik.

Daxili bazarımızda ölkəmizin və muxtar respublikamızın inkişafından xəbər verən keyfiyyətli yerli məhsullarımız vardır. Belə ki, hər dəfə üzərində "Azərbaycanda istehsal edilmişdir" yazıları ilə etiketlənmiş malları gördə dərhal dolğun təəssüratlarımız formalaşır. Bu mallara xaricdə rast gəldikdə isə bu təəssürat ikiqat artır. Belə ki, hələ 2013-cü ildə bir təhsil layihəsi üzrə səfər etdiyimiz Latviyanın paytaxtı Riqa şəhərindəki iri supermarketdə Avropa İttifaqı standartlarına uyğun şəkildə hazırlanıb qablaşdırılmış Bakı lavaşını görəndə digər azərbaycanlı müəllim həmkarlarımla birgə bu əvəzsiz nemətə necə həyəcanla baxdığımızı indi də xatırlayıram. Amma düşünəndə ki, bu keşgə Naxçıvan lavaşı olsaydı, onda bütün Avropa əhli çörəkbişirmə ənənələrinin Azərbaycanın bütün bölgələrində necə inkişaf etdiyinin şahidi olar, damağının dadını bilərdi. Reklam sarıdan geriliyimizdir ki, bu gün ətirli Naxçıvan lavaşını biz nəinki Avropada, heç Bakıda da geniş tanıda bilməmiş, onun patent və brendləmə işlərini indiyə qədər təşkil etməmişik. Nəticədə, ölkəmizin digər yerlərində hər qonaq getdiyimiz evin süfrəsində "Naxçıvan lavaşı" adı altında müxtəlif saxta məhsullarla rastlaşmaqdayıq.

Hazırda bizim hasilat sənayemizin, yaxud turizm ehtiyatlarımızın və olduqca təmiz kənd təsərrüfatı məhsullarımızın reklamı üçün geniş imkanlar vardır. Ancaq bizim bir çox sahibkarlarımız, bələdiyyələrimiz və icra orqanlarımız hələ də reklama dırnaqarası baxır, bunun eyni zamanda vətənpərvərlik vəzifəsi olduğunu unudurlar. Elə bu səbəbdəndir ki, cari ilin fevral ayının 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşündə demişdir: ***"İxracyönümlü məhsul istehsal edən sahibkarlıq subyektlərinin fəaliyyətini stimullaşdırmaq, onların xarici bazarlara çıxış imkanlarını asanlaşdırmaq lazımdır. Eyni zamanda sahibkarlıq subyektləri də gözləmə mövqeyində dayanmamalı, öz məhsullarının muxtar respublikadan kənarda satışının təşkili məqsədilə marketinq araşdırmaları aparmalı, bu məhsulların təbliği üçün internet resursları və kütləvi informasiya vasitələrinin imkanlarından faydalanmalıdırlar".***

Bəs ölkəmizdə qeyri-neft sektoru üzrə ixrac potensialımızın artırılması məqsədini güdən sahələrdə marketinq və reklam işləri üzrə fəallığın artırılması nə üçün belə vacibdir? Şübhəsiz, nəinki sahibkar, hətta sadə bir istehlakçı da yaxşı bilir ki, ölkəmizə idxal olunan hər bir mal və xidmət strateji valyuta ehtiyatlarımızın xərclənməsi hesabına başa gəlir. Bu fakt, hətta, orta təhsilli hər bir vətəndaşa, ən azından ona 9-11-ci siniflərdə tədris olunmuş İqtisadiyyatın əsasları fənnindən də yaxşı məlumdur. Buna görə də, əlimizdə olan imkanlardan maksimum istifadə etməklə valyuta ehtiyatlarımızın artırılmasına yönəlmiş ixracyönümlü fəaliyyət və ya iqtisadi nəticəsinə görə ona tamamən bərabər olan idxaləvəzləyici istehsalın genişləndirilməsi aktuallıq kəsb edir. Buna da uğur qazandıran mühüm amillərdən biri reklam fəaliyyətidir.

Səmərəli reklam işi üçün hazırda əlimizdə bütün imkanlar vardır. Bu sahə üzrə ölkəmizdə qanunvericilik bazası yaradılıb, reklam resurslarının yerləşdirilməsi üçün bütün növ informasiya çıxışlarına sərbəstlik təmin olunub. Ancaq reklam resurslarının yaradılması və onların müvafiq informasiya kanallarında yerləşdirilməsi məsələsinə gəldikdə, bütün problemlər, deyəsən, burada görünməkdədir. Halbuki çox gözəl reklam çarxları ilə turizm xidmətlərimizi, Naxçıvanın brendi ola biləcək məhsulları Avropa və ya dünya miqyasında yayımlanan televiziya kanallarında reklam etmək üçün yaxşı imkanlara malikik. Ən azından qardaş Türkiyə kanallarında. Amma real vəziyyət odur ki, bu iş heç ölkə və yerli telekanallarda da lazımınca təşkil olunmayıb.

İndi bütün dünyada hər bir ölkənin, yaxud onun regionunun brend məhsullarla tanınması ənənəsi vardır. Məsələn, hər kəs yaxşı bilir ki, bütün dünyanı gəzsən də Naxçıvan göycəsinin analoqu yoxdur və ya Naxçıvan Duzdağının, Naxçıvanda hasil olunan "Sirab" və "Badamlı" sularının hansı müalicəvi keyfiyyətləri vardır. Dərindən araşdırma aparsaq, sırf Naxçıvana məxsus olan belə nemətlərimiz onlarca saydadır. Deməli, səmərəli və məqsədli reklam və təbliğat işləri apara bilsək, Naxçıvan kimi böyük olmayan bir regiondan dünya əhəmiyyətli ixrac fəaliyyəti aparmaq mümkündür. Ancaq təkcə ixrac fəaliyyəti üçünmü? Gündəlik müşahidə göstərir ki, bu gün daxili bazarımızda öz keyfiyyətinə görə xarici analoqlarından çox üstün olan bir çox yerli məhsullarımız sırf özünün primitiv qablaşdırma və zəif dizaynına görə bazardakı idxal mənşəli rəqiblərinə uduzur. Dəfələrlə özümüz də görmüşük ki, xüsusən uşaqlarla birlikdə bazar və marketlərdə alış-veriş edərkən eyni rəfdəki yerli məhsulların yanındakı idxal malları alırıq. Xammalı, mineral tərkibi öz torpağımızın məhsulu olan bəzi yerli mallarımız isə ya heç qablaşdırılmadığından, ya da bu iş keyfiyyətsiz və zövqsüz olduğundan elə rəfdəcə məlumatsız alıcının gözündən düşür, istifadə vaxtı keçir. Bu da bəzi sahibkarların öz məhsulunun reklamına dırnaqarası baxmasının nəticəsidir.

Bununla belə, reklam və təbliğat sahəsindəki fəaliyyətsizliyi təkcə gözəl dizayn və qablaşdırmada axtarmaq düzgün olmazdı. Təcrübə göstərir ki, reklam işi daha çox təəssübkeşlik və yaxşı mənada yerliçilik hissləri də tələb edən bir fəaliyyətdir. Yəni bir süfrə arxasında əyləşdiyimiz qonaqla söhbət zamanı Naxçıvanın əvəzolunmaz nemətləri haqqında ağızdolusu danışırıqsa, bax, bu, ən yaxşı reklamdır. Amma gəlin görək bu işdə nə qədər vətənpərvərik? Etiraf edək ki, toylarımızda və yaxud digər ziyafətlərdə imkan olan kimi dərhal masaları idxal məhsullarla bəzəmək istəyimiz hələ də qalmaqdadır. Düzdür, indi bazar iqtisadiyyatı, sərbəstlik dövrüdür. Amma bazara, dükana baxıl olanda bir az da milli təəssübkeşliyimizi ortaya qoymaq zamanı çoxdan gəlib. Bu, ən azından öz övladlarımızın gələcək davranışlarına da bir nümunə olmalıdır. Yoxsa belə təəssüb hissləri olmasa, onda həm canlı, həm də virtual reklam işində yenə də geridə qalacağıq.

Reklamla bağlı virtual aləmdə görülən işlər isə bu sahədə kimin nə qədər bacarıqlı olduğunu dərhal üzə çıxarır. Elə buna görə də cari ilin mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublikada elektron məkanda reklam fəaliyyətinin genişləndirilməsi müvafiq təşkilatlar qarşısında ciddi bir tapşırıq kimi qoyulub. İndi, gəlin görək, keçən müddət ərzində icra hakimiyyətlərimiz, şəhər bələdiyyəmiz və digər müvafiq qurumlar öz saytlarında və ya sosial şəbəkə səhifələrində Naxçıvanın turizm potensialının təbliği ilə bağlı hansı yeni elektron resurslar yerləşdiriblər? Axtarsaq, çox az məlumat tapa bilərik. Halbuki bizdə bu işi təşkil etmək üçün kifayət qədər reklam materialı və təcrübə vardır. Belə bir təcrübə üçün heç də uzağa getmək lazım deyil. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının saytına daxil olduqda şirkət, onun məhsulları haqqında müasir internet istifadəçisinə lazım olan bütün yenilənmiş məlumatlar Azərbaycan və ingilis dillərində təqdim olunur. Bu baxımdan ötən həftələrdə muxtar respublikamıza səfər etmiş və Naxçıvan şəhəri ilə yaxından tanış olmuş yapon, rumıniyalı və avstriyalı qonaqlarla bağlı iki dildə təqdim olunan məlumatları bir nümunə kimi Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Şəhər Bələdiyyəsinin diqqətinə çatdırırıq. Reklam vasitəsilə, əslində, cəmiyyətlə sıx əməkdaşlıq nümunəsi kimi tək bircə şirkətimizi qeyd etmirik. "Gəmiqaya Holdinq", "Dizayn Holdinq" Kommersiya Şirkətləri ittifaqları, "Ləzzət Qida Sənaye" MMC və digər şirkətlər öz veb səhifələri vasitəsilə müasir tələbkar istehlakçıya lazım olan məlumatları çatdırırlar. Bunlardan əlavə, ölkə və yerli telekanallarda, müxtəlif sponsorluq tədbirlərində bu şirkətlərin istehsalı olan Naxçıvanın brend məhsullarının reklamını da görməkdəyik ki, bunlar da çox sevindiricidir. Lakin hazırkı imkanlarımıza baxdıqda görürük ki, bu, çox azdır. Misal üçün, hər bir naxçıvanlı istər ki, Avropa telekanallarını açanda "Sirab"ın, "Badamlı"nın, Duzdağın, Darıdağın reklamına, yaxud Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə hazırlanmış "Naxçıvana xoş gəlmişsiniz" adlı videoçarxa rast gəlsin.

Muxtar respublikamızda çox sayda özəl qurum fəaliyyət göstərsə də, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, onlardan yalnız 50-yə yaxını öz veb səhifələri və sosial şəbəkə vasitəsilə məhsul və xidmətləri haqqında müəyyən məlumatlar verirlər. Ona görə yalnız müəyyən məlumatlar deyə bilirik ki, bu saytların əksəriyyəti müasir istehlakçının tələblərindən xeyli uzaqdır. Belə ki, əksər şirkətlərin saytlarının ana səhifələrinin həddən artıq ağır olması, yaxud belə saytlarda onların əsas missiyasından kənar olan lüzumsuz informasiyaların yerləşdirilməsi, boş keçidlərə rast gəlinməsi, dilimizin qrammatik qaydalarının kobud şəkildə pozulması və xarici dillərdə olan sözlərə yer verilməsi hallarına rast gəlinməsi təkcə peşəkarlığın zəifliyini deyil, eyni zamanda onların, sadəcə, verilmiş tövsiyələrə əməl olunması xatirinə hazırlandığını göstərir. Yəqin ki, bu iş peşəkarcasına aparılsaydı, Şərur rayonunda fəaliyyət göstərən Elçin Tağıyevə məxsus "Məmməd-Tağı" MMC-nin boş olan internet səhifəsinin də adı *www.mammad-tagi.az* olmazdı. Həmişə bir veb səhifəsinə baxarkən orada verilən informasiya məhz həmin resursun tanıtımı kimi yadda qalır. Ona görə də yaxşı olardı ki, sahibkar Elçin Tağıyev də veb səhifəsinin adını istehsal etdiyi məhsulun adı ilə tanıtsın. Hər halda müasir dünyada aparılan marketinq işləri də belə qurulur.

Nazirlikdən aldığımız arayışa əsasən, qısa bir ümumiləşdirmə aparsaq, özəl şirkətlərimizin elektron məkanda təbliği vəziyyətini aşağıdakı kimi qiymətləndirmək olar. Bunlardan birincisi kimi *www.cahan.az, www.gemikaya.com, www.dizaynholding.com, www.neqsicahan.az, www.lezzet.az, www.sirab.com, www.nati.az, www.agronax.az, www.prestij-np.com, www.dekorqrup.com, www.rahibsirniyyat.com* adlı veb səhifələrin təmsil etdikləri şirkətlərin fəaliyyəti, missiyası, reklam çağırışı və saytın dizaynı ilə müasir dövrün elektron marketinq tələblərinə cavab verdiyini görürük. İkinci qrupda isə tərtibatı, məzmunu, dil və reklam çağırışı baxımından kifayət qədər qüsur və çatışmazlıqları olan müəssisələrin veb saytlarını görürük. Məsələn, "Naxçıvan Duz İstehsalı" MMC-nin veb səhifəsində yerləşdirilmiş mənzərənin Naxçıvanın hansı yerində olduğu və saytın əlaqə bölməsində təyin olunmamış telefon nömrələrinin hansı məqsədlə yerləşdirilməsi maraq doğurur. Eynitipli problemi "Ordubad Qənnadı Məmulatları" MMC-nin *www.ordubadnemetleri.az* saytında da görməkdəyik. Saytdakı çox ciddi qüsurlarla yanaşı, ana səhifədə əks olunmuş böyük təbiət mənzərəsinin də Ordubada aid olmadığı görünür. "Zümrüd" Kiçik Müəssisəsinin *www.zumrud-km.com* saytında ilk görünən şəkil isə Naxçıvanda olan bir kiçik müəssisədən çox, hardasa fəaliyyət göstərən beynəlmiləl bir şirkətdən xəbər verir. Arzu edirik bu da olsun. Amma belə marketinq-reklam strategiyası ilə çətin ki... Kəngərli rayonunda fəaliyyət göstərən, "Fitonad" limonad istehsalı müəssisəsinin *www.korabulaq.com* saytında isə onun köhnə, həm də o qədər də uğurlu olmamış "Korabulaq" əmtəə nişanı ilə istehsal edilmiş məhsullarının reklamı da bu sahədəki mövcud problemləri göstərir. "Şərur-3" MMC-nin veb səhifəsi olan *www.serur-3.com* da isə burada tətbiq edilən gümüş filtr texnologiyası və istehsal olunan spirtli içkilərin hansı müalicəvi əhəmiyyətə malik olduğu qeyd olunsaydı, yaxşı olardı. Babək rayonunda fəaliyyət göstərən "Bizim qida" MMC-yə aid olduğu göstərilən veb səhifəsinin *www.azersun.com* kimi təqdim olunması isə tamamilə sual doğuran bir məsələdir. Eyni rayondakı süd məhsulları emalı ilə məşğul olan "İlham" MMC-nin *www.ilhammmc.com* saytı müəssisə haqqında heç bir fikir yaratmır. Eyni iradları "Fərda" və "Damla" şirniyyat müəssisələri haqqında da demək olar. Naxçıvan şəhərində fəaliyyət göstərən "Azad" Şirniyyat Şirkətinin *www.azadsirniyyat.az* saytında isə hədəflərinin "Bakını tamamilə "Şirin Zona"ya çevirmək" olduğu göstərilir! Buna isə, sadəcə, "uğurlar" deyə bilərik. "Nursu-1" MMC-nin saytındakı təmtəraqlı çıxış yerinə isə, yaxşı olardı ki, müəssisənin ünvanı düzgün yazılardı.

Göründüyü kimi, bir çox şirkətlərimiz təsirli reklamın təşkilində internetin imkanlarından tam istifadə etmirlər. İstehsal müəssisələrimizin fəaliyyətini tənzimləyən müvafiq qurumların reklam baxımından üzərlərində heç bir təşkilati-metodoloji dəstəyinin hiss olunmadığı belə şirkətlərimiz təkcə bəyənilən veb səhifəsi yaratmaqda deyil, sosial şəbəkələrdə də lazımınca təbliğ olunmaqda axsayırlar. Misal üçün, "Naxçıvan Avtomobil Zavodu" MMC kimi yerli istehsal müəssisələrimizin əksəriyyətinin sosial şəbəkələrdə öz səhifəsinin olmaması təəccüb doğurur. Halbuki müasir dövrdə əsas tanıtım-təbliğat işləri sosial şəbəkələr vasitəsilə aparılır. Bunlardan əlavə, ödəniş ucbatından veb səhifələri bağlanmış olan Naxçıvan şəhərindəki "Araz Holdinq LTD" MMC, "Məişət Xidməti" MMC, "Danyeri" dondurma istehsalı müəssisəsi, Şahbuz rayonundakı "Çınqıllı Bulaq" MMC və digər şirkətlərimiz də vardır. Bu vəziyyəti görəndə onların ya işlərinin yaxşı getdiyini, ya da ki, reklama ehtiyacı olmadığını düşünürük. Amma belə şirkətlərimizin nəzərinə çatdırırıq ki, biz qlobal rəqabətin bir parçasıyıq və bu gün onların bazardakı uğurlarının davamlı olması bizi də maraqlandırır. İstehsal etdiyi məhsulların reklamını düzgün təşkil etməyən müəssisələr bilməlidir ki, bunsuz nəinki xarici bazarlara çıxmaq, heç daxili bazarda da möhkəmlənmək çətindir.

*Naxçıvanda fəaliyyət göstərən istehsal müəssisələrinin qarşısında xarici bazarlara məhsul çıxarmaq vəzifəsi qoyulduğu bir vaxtda muxtar respublikamızda yerli istehsalın stimullaşdırılması üçün göstərilən dövlət dəstəyinə istehsal müəssisələrimiz də əməli işlə cavab verməli, məhsulların geniş tanıtımını təşkil etməlidir. Əks təqdirdə, bizim keyfiyyətli yerli məhsullarımız mağazaların vitrinlərində vaxtı keçmiş mallara çevriləcəkdir.*

**Əli CABBAROV**

# *“Hekayələr”* kitabının təqdimat mərasimi olub






***Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində “Eynəli bəy Sultanov: Hekayələr” kitabının təqdimat mərasimi keçirilib.***

Təqdimat mərasimini AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq kitabın hazırlanması sahəsində görülən işlərdən danışaraq qeyd edib ki, bölmənin elmi işçisi Elxan Məmmədovun topladığı hekayələrin nəşr olunduğu bu kitab gərgin və məhsuldar fəaliyyət sayəsində ərsəyə gəlib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 15 fevral tarixli Sərəncamı görkəmli mütəfəkkirin həyat və fəaliyyətinin yenidən tədqiq edilməsi ilə yanaşı, həm də ədəbiyyatımızın, mədəniyyətimizin, ümumilikdə, ictimai fikir tariximizin öyrənilməsinə xidmət edən mühüm dövlət sənədidir.

Vurğulanıb ki, görkəmli yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun çoxşaxəli fəaliyyəti Azərbaycan ictimai fikir tarixində mühüm mərhələ təşkil edir. 1866-cı il mayın 5-də Naxçıvan şəhərində anadan olan Eynəli bəy Sultanov ilk təhsilini Naxçıvan qəza məktəbində alıb. 1880-1886-cı illərdə “İrəvan kişi gimnaziyası”nda təhsilini davam etdirən gənc Eynəli öz bilik səviyyəsini xeyli zənginləşdirib, Avropa ədəbiyyatını və Qərb maarifçiliyini dərindən mənimsəyib.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev “Eynəli bəy Sultanovun ədəbi-bədii irsinin öyrənilməsi və nəşri məsələləri” mövzusunda məruzə ilə çıxış edib.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Fərman Xəlilovun, institutun böyük elmi işçiləri, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılın, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımovun da çıxışları olub.

Bildirilib ki, akademik İsa Həbibbəylinin məsləhətçisi və ön sözün müəllifi olduğu kitabda 33 hekayə toplanıb.

Bu hekayələr içərisində “Naxırçı qızı Gözəl”, “Bülbül”, “Cənub gecələri”, “Qurd balası”, “Çalma”, “Təzə pir” kimi hekayələr öz ibrətamizliyi ilə diqqəti cəlb edir.

Sonda “Eynəli bəy Sultanov: Hekayələr” kitabını toplayan, tərtib edib nəşrə hazırlayan AMEA Naxçıvan Bölməsinin Folklorşünaslıq şöbəsinin elmi işçisi Elxan Məmmədov çıxış edərək, ilk növbədə, Eynəli bəy Sultanov irsinin hərtərəfli öyrənilməsinə yol açan müvafiq sərəncamın əhəmiyyətindən danışıb, təqdimetmə mərasimində çıxış edənlərə və iştirakçılara öz minnətdarlığını bildirib. Elxan Məmmədov Eynəli bəy Sultanovun çoxşaxəli yaradıcılığına dair bundan sonra da tədqiqatlar aparacağını vurğulayıb.

✍ **Nərgiz İSMAYILOVA**

# Səhnəni fəth edən rəssam

***Teatr sənəti sintezi sevən bir sahədir. Burada tamaşa üçün təkcə aktyor oyunu kifayət etmir. Teatrı real həyata yaxınlaşdırmaq üçün, təbii ki, səhnədə məkanın, geyimin, musiqinin, rənglərin əhəmiyyəti çoxdur. Bu vacib məsələni isə birmənalı şəkildə peşəkar teatr rəssamı həll edir.***

Teatr rəssamı digər rəssamlardan tamamilə fərqlənir. Bu sahənin adamları teatr sənətinin incəliklərini də yaxşı bilməlidirlər. Bu baxımdan Azərbaycan teatr məktəbində Naxçıvanın teatr rəssamlarının xüsusi yeri var. Bu günə qədər Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ona qədər rəssamın quruluş verdiyi tamaşalar səhnəyə qoyulub. Etiraf edək ki, bunların hamısı da özünəməxsus uğurla, təkrarsız koloritlə yadda qalıb. Şərqin ikinci qocaman teatrının tarixində Bəhruz Kəngərli, Şamil Qazıyev, Məmməd Qasımov, Şamil Mustafayev, Yuran Məmmədov, Hüseynqulu Əliyev, Səyyad Bayramov kimi rəssamlar tamaşalara öz bacarıqları ilə yaddaqalan bədii tərtibatlar veriblər. Son illər isə teatrın səhnəsində yeni bir rəssamın imzası tanınmağa başlayıb – Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundovun. Yuxarıda saydığımız klassik və müasir rəssamların yaradıcılığından tamamilə fərqlənən Əbülfəz Axundovun tamaşaları öz möhtəşəmliyi və sadəliyi ilə seçilir. Hələ 21 yaşında ikən keçmiş SSRİ Rəssamlar İttifaqının ən gənc üzvü olan Əbülfəz Axundovun səhnə duyumu, müasir və klassik dramaturgiya haqda bildikləri onun quruluş verdiyi tamaşalarda özünü göstərir. Ömrünün 30 ilə yaxın bir dövrünü teatra həsr edən rəssam üçün səhnə görmək istədiyi, fikrində yaşatdığı əlçatmaz aləmin, dünyanın bir parçasıdır. Onun quruluş verdiyi əsərlərdə dekorasiyalar, hətta nəhəng qayalar belə, tamaşaçını özündən uzaqlaşdırmır, əksinə, onu aktyorlarla birlikdə birbaşa hadisələrin içərisinə nüfuz etməsinə kömək edir, tamaşaçını iştirakçıya çevirə bilir. Hər bir rejissor üçün onunla işləmək nəinki asan, hətta bir zövqdür. Çünki Əbülfəz Axundov Naxçıvan teatrının klassik ənənələrinə ciddi riayət etməklə müasir tamaşaçı duyumunu, dünyagörüşünü bir-birinə qarışdıra bilir.

Mən 1993-cü ildə Əbülfəz Axundovun teatr rəssamı kimi ilk işini Cəlil Məmmədquluzadənin “Anamın kitabı” əsərinə verdiyi quruluşda görmüşəm. Amma buna qədər o, Vaqif Səmədoğlunun “Bəxt üzüyü”, Cəfər Cabbarlının “Aydın”, “Solğun çiçəklər” tamaşalarına quruluş vermişdi. Şəhid həmyerlimiz Vaqif Əhmədovun rejissorluq etdiyi “Anamın kitabı” tamaşasında səhnədə bir-birindən aralıda qoyulan, bayrağımızı simvolizə edən göy, qırmızı və yaşıl rəngli masalar, tavandan asılan iri bir tor artıq ilk baxışdan tamaşaçıya milli varlığımızın hansı problemlərlə üzləşdiyini və onun başının üzərini alan qorxunu çatdıra bilirdi. Bu, Mirzə Cəlil dünyasının, narahatlığının rəssam təxəyyülündə inikası idi. Tamaşa Bakı şəhərində çox uğurla oynanıldı və təbii ki, rejissor işi, aktyor oyunu ilə bərabər, rəssam işi də sənət adamları tərəfindən yüksək qiymətləndirildi. Sonradan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnələşdirilən tarixi əsərlərin əksəriyyəti Əbülfəz Axundov təxəyyülü ilə bədii şəkildə tərtib edildi. Nəriman Nərimanovun “Nadir şah”, Nəriman Həsənzadənin “Atabəylər”, “Pompeyin Qafqaza yürüşü”, Mir Cəlalın “Dirilən adam”, Cəlil Məmmədquluzadənin “Dəli yığıncağı”, Hüseyn Cavidin “Səyavuş”, “İblis” əsərləri onun rəssamlıq etdiyi tamaşalardandır. Yəqin ki, teatrla bağlı olan və bu tamaşalara baxan oxucular nəhəng qayaların necə asanlıqla düzənliyə döndüyünü, göydən yerə sallanan nizələrin, böyük qalxanların, sütunların bu tamaşalarda səhnədə necə hərəkət etdiyini, gah görünüb, gah da müəmmalı şəkildə yoxa çıxdığını yaxşı xatırlayırlar. Bütün bunlar isə rejissorlarla yanaşı, usta rəssamın işidir. Bəzən rəssamların qurduğu dekorasiyalar nə qədər gözəl olsa da, aktyor mizanına, hərəkətinə mane olur, ya da onu tamamlaya bilmir. Amma Əbülfəz Axundovun quruluş verdiyi tamaşalarda səhnədə heç nə artıq olmur. Əksinə, peşəkar aktyor üçün daha çox manevrlər etməyə şərait yaradır. Maraqlı burasıdır ki, nə qədər peşəkar olsa da, Əbülfəz Axundov üçün Naxçıvanda olub-keçən ən böyük teatr rəssamı Bəhruz Kəngərlidir.

“Biz müasir dövrdə hər cür texniki imkanlarla, geniş səhnə ilə təmin edilmişik. Mənim üçün çox maraqlıdır ki, o zaman, 20-ci əsrin əvvəllərində heç nə olmadığı bir vaxtda, kiçik səhnələrdə, maddi sıxıntı ilə yaşayan gənc Bəhruz ustalıqla necə tamaşalar hazırlayırdı? Bu tamaşalar isə Naxçıvan teatrının tarixidir”. Bu, indiki tamaşaçını öz səhnə tərtibatları ilə mat qoyan, Bakının tanınmış teatrlarından Naxçıvana gəlib onunla işləyəndən sonra Bakıya dəvət etdiyi rejissorları heyrətləndirən bir teatr rəssamının etirafıdır. Amma Əbülfəz Axundov üçün hələ ki “ən yaxşı tamaşam” anlayışı yoxdur. Çünki həyat, cəmiyyət inkişaf etdikcə tamaşaçı daha tələbkar olur, səhnə isə yeni əsər və yeni tərtibat istəyir...

**Səməd CANBAXŞIYEV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında keçirilən aksiyalar davam etdirilir.*

# Uzunoba Su Anbarı ətrafında gənclərin iştirakı ilə *“Hərəmiz bir ağac əkək”* aksiyası keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Uzunoba Su Anbarı ətrafında “Hərəmiz bir ağac əkək” aksiyası keçirilib.

Naxçıvan Dövlət Texniki və Musiqi kollecləri tələbələrinin iştirak etdiyi aksiyadan əvvəl Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Mayis Əliyev tələbələrə muxtar respublikada ətraf mühitin mühafizəsi istiqamətində görülən işlər, təbii sərvətlərdən səmərəli istifadə edilməsi sahəsində həyata keçirilən tədbirlər barədə geniş məlumat veriblər. Qeyd edilib ki, ekoloji problemlərin həllində ictimaiyyətin, eləcə də gənclərin rolu böyükdür. Son dövrlərdə muxtar respublikada ekologiyanın və ətraf mühitin mühafizəsinə gənclərin daha çox maraq göstərməsi, keçirilən aksiyalarda onların böyük ruh yüksəkliyi ilə iştirakı bu sahədə aparılan maarifləndirmə işlərinin nəticəli olmasından, gənclərin ekoloji təfəkkürünün inkişafından xəbər verir.

Sonra tələbə-gənclər qısa zaman ərzində ağac əkilməsi üçün ayrılan ərazini, arxları quru otlardan, çalı-çırpıdan təmizləyib, oraya müxtəlif növ meşə ağaclarının fidanlarını əkiblər. Gənclər böyük həvəslə burada əvvəlki illərdə əkilmiş ağacların diblərini yumşaldaraq onlara su veriblər.

Aksiya əsnasında Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrindən Kamal Əlirzayev, Songül Səfərova, Qafar Mustafayev, Xəyal Kərimov və başqaları ilə söhbətlərimizdən belə bir nəticə hasil oldu ki, “Hərəmiz bir ağac əkək” aksiyasının keçirilməsi ilə bağlı nəcib təşəbbüsün irəli sürülməsi muxtar respublikanın tələbə-gəncliyi, eləcə də kollecin tələbələri tərəfindən dərin minnətdarlıq və razılıq hissi ilə qarşılanıb. Elə bu səbəbdəndir ki, kollecin tələbələri bu aksiyalarda fəal iştirak etməyə çalışıblar.

Ətraf mühitin sağlamlaşdırılması, ekoloji vəziyyətin yaxşılaşdırılması, Vətənimizin abad, yaşıl, çiçəklənən diyara çevrilməsi naminə keçirilən bu qəbildən aksiyaların əhəmiyyətini onlar yaxşı başa düşür və yüksək qiymətləndirirlər. Çalışacaqlar ki, bundan sonra da belə aksiyalarda fəal iştirak etsinlər.

Ekoloji tədbirdə iştirak edən Naxçıvan Musiqi Kollecinin tələbələrindən Nuray İsmayıllı, Simuzər Nəzərəliyeva, Mustafa Məmmədov, Sərvin Babayev, Sevinc Haqverdiyeva, İnci Vəliyeva ilə söhbət zamanı bildirdilər ki, onlar bundan sonra da doğma yurdumuzun istənilən guşəsində keçiriləcək belə aksiyalara qoşulmağa hazırdırlar. Bu gün əkilən hər bir ağac gələcək nəsillərə yadigar qalacaq. Biz bu aksiyaya həvəslə qatılmışıq. Çünki yaxşı bilirik ki, öz doğma yurdunu, torpağını sevən hər bir gənc belə tədbirlərə qoşulmaqla insanlara xeyir verə bilər. Ağacın insanlara faydası hədsizdir. Torpaqdakı nəmliyi qurutmasını, torpaq sürüşməsinin qarşısını aldığını bilirik. Onu da bilirik ki, bir ağac il ərzində havadan 700 kiloqram tozu özünə çəkərək torpağa ötürür, bir ağacın kökləri il ərzində 30 min ton suyu özünə çəkir, bu su ilə torpağa və havaya lazım olan qədər nəmlik verir. Yaşlı bir ağac 60 nəfəri oksigenlə təmin edir. Ağaclar həm də ən böyük fotosintez maşınıdır. Ağacların kölgəsi yayda insanları qızmar istidən qoruduğu kimi, budaqları da qışda sərt küləyin qarşısını alır. Belə aksiyalar bizim və bizdən sonra gələcək nəsillərin sağlam mühitdə yaşaması üçün təşkil edilir. Buna görə də təşkilatçılara minnətdarıq.

Məlumat üçün bildirək ki, bu gün “Naxçıvan” Universitetində “Ətraf mühit və biz” mövzusunda gənclərin rəsm əsərlərindən ibarət sərgi-müsabiqə təşkil olunacaq, “Nəbatat bağı”nda gənclərin iştirakı ilə “Ətraf mühiti necə qoruyuruq?” mövzusunda diskussiya keçiriləcək.

✍ **Səbuhi HÜSEYNOV**

# Tətil günlərində işləmək istəyən tələbələrin nəzərinə!

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) Məşğulluq mərkəzləri tətil günlərində işləmək arzusunda olan tələbələrin xüsusi peşə hazırlığı tələb etməyən mövsümi və digər müvəqqəti xarakterli işlərə göndərilməsini təmin edir.

Tətil günlərində işləmək arzusunda olan tələbələr yaşadıqları ərazinin Məşğulluq Mərkəzinə müraciət edə bilərlər.

**Əlaqə telefonu: 545-42-12**


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Muxtar Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1050. Sifariş № 431**